# Qarabağda məktəb həyatına səsləyən zəng



## Zəngilanın Ağalı kəndində 28 ildən sonra ilk dərs gününün həyəcanı yaşandı

**Bakıdan yenə bir köç yola düşürdü o gün. Sentyabrın 10-da Zəngilan rayonunun Ağalı kəndinə daha 62 sakinin köçürülməsi ilə bu prosesin ikinci mərhələsi başa çatmış oldu. Televiziya kanallarında, qəzet səhifələrindəki görüntüləri, şəkilləri izləyərkən heç bu yerlərə kənd deməyə adamın dili də gəlmir. Dünyanın inkişaf etmiş ölkələrinin müasir kəndləri, şəhərləri ilə rəqabətə girə biləcək qədər gözəl, müasir bir məkandır Ağalı. Burada məskunlaşan sakinlər yüksəkkeyfiyyətli, "ağıllı" texnologiyalarla təchiz edilmiş evlərlə təmin olunub. "Ağıllı kənd" layihəsi yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələri kimi komponentlər üzrə icra edilib.**

Ağalı kənd meydanında Dövlət Xidmətləri Mərkəzi yaradılıb. Burada "Azərpoçt" MMC-nin rayon şöbəsi, "ASAN xidmət" və DOST, Kiçik və Orta Biznesin İnkişafı Mərkəzləri təsis olunub. Məqsəd kənd sakinlərinin dövlət xidmətlərinə rahat çıxışını təmin etməkdir.

Kənddə tikiş fabriki, ailə sağlamlıq mərkəzi (tibb məntəqəsi) də tikilib. Burada aptek, mağaza, kafe, mobil operator xidməti və s. fəaliyyət göstərir. Kəndin ən münasib yerində 360 şagird yerlik məktəb binası da müəllim və şagirdlərin istifadəsinə verilib. O, öz qapılarını sentyabrın 15-də ilk dərs günü şagirdlərin üzünə açdı, işğaldan azad olunmuş ərazilərdə ilk dərs gününün zəngi çalındı...

Vətən müharibəsi qələbə ilə başa çatdıqdan sonra işğaldan azad edilmiş ərazilərdə geniş quruculuq işlərinə başlanılıb. İnfrastruktur layihələr gerçəkləşdirilir, yollar çəkilir. Erməni vandalizminə məruz qalmış tarixi-dini, memarlıq abidələrinin bərpası istiqamətində Heydər Əliyev Fondunun dəstəyi ilə restavrasiya işləri aparılır. Bütün bunların fonunda təhsil sahəsində də müəyyən işlər görülür.

Təhsildən danışarkən tarixə qısa bir ekskurs etmək istərdik.

XX əsrin ikinci yarısında ölkəmizdə maarifçilik hərəkatının güclənməsinin nəticəsi olaraq dünyəvi təhsilin tədrisinə üstünlük verən məktəblərin sayı artmağa başladı. Bakı Real Məktəbini, Gəncə klassik progimnaziyasını buna nümunə göstərmək olar.

Həmin dövrdə maarifçilik hərəkatının genişlənməsi ilə yanaşı, sənaye, ticarətin inkişafı nəticəsində əhalinin təhsilə olan tələbatının artması Şuşa şəhərində məktəb təsis etmək üçün tarixi şərait yaratdı. Məktəbin yaradılması məqsədilə şəhər əhalisi 1880-ci il iyun ayının 30-da Peterburq-Qafqaz komitəsinə aşağıdakı mətndə müraciət ünvanladı: "Şuşa şəhər sakinlərinin təhsilə olan cidd-cəhdinə (şəhər məktəbində 400-dən artıq şagirdin oxuması bu cəhdi bir daha təsdiq edir) və şəhər ictimaiyyətinin arzusuna əsaslanan Gəncə qubernatoru Şuşa şəhərində 6 sinifli realnı məktəb açmağı xahiş edir. Şəhər ictimaiyyəti həmin məktəbi müvafiq bina ilə təmin etməyi və bir ildə 7500 manat pul ilə kömək etməyi öhdəsinə götürür". Bu müraciətin nəticəsi olaraq, 1881-ci il sentyabr ayının 20-də Şuşa şəhərində 6 sinifli realnı məktəbin əsası qoyuldu. Məktəb üçün binanın və maliyyənin ictimaiyyət tərəfindən ayrılması əhalinin təhsilə nə qədər önəm verdiyinin göstəricisi idi. Beləcə, Qarabağda ilk realnı məktəb yaradıldı.

Təəssüf ki, 1992-ci ilin may ayında Şuşa şəhərinin işğalı nəticəsində həmin bina erməni vandalları tərəfindən yandırıldı. Elə Qarabağın digər ərazilərində də məktəb binaları eyni taleyi yaşamalı oldular. Vətən müharibəsindəki qələbə o torpaqlara azadlıq gətirdi. Yandırılmış, məhv edilmiş, dağıdılmış məktəblər də indi yenidən tikilir.

2021-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşa şəhərində yeni ümumtəhsil məktəbinin tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb. 960 şagird yerlik tam orta məktəbin layihələndirilməsi və tikintisi məqsədilə 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Elm, Təhsil Nazirliyinə ilkin olaraq 3 milyon manat vəsait ayrılıb.

Dövlət başçısı 2021-ci il oktyabrın 4-də Cəbrayıl şəhərində 960 şagird yerlik akademik Mehdi Mehdizadə adına tam orta məktəbin layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Elm və Təhsil Nazirliyinə ilkin olaraq 500 min manat vəsaitin ayrılması haqqında sərəncam imzalayıb.

İşğaldan azad edilmiş Ağdam şəhərində 1 nömrəli məktəb üçün 960 şagird yerlik binanın tikintisi də sürətlə davam etdirilir. Məktəbin inşasına 2021-ci ilin dekabrında başlanılıb. İki hektar ərazidə inşa edilən üçmərtəbəli məktəb binası üç blokdan ibarət olacaq. Binada 40 sinif otağı, laboratoriya, fənn kabinetləri, akt və idman zalları, kitabxana, yeməkxana, muzey və xidməti otaqlar yaradılacaq. İstilik, elektrik, havalandırma və müşahidə sistemləri ilə təmin ediləcək məktəb binasının həyətində futbol və basketbol meydançaları, nasosxana, tranformator binası, içməli və yanğından mühafizə su hovuzları və s. inşa ediləcək. İşlər yüksək keyfiyyətlə və tikinti normalarına uyğun şəkildə aparılır. Binanın bu ilin sonunadək yekunlaşdırılması nəzərdə tutulur.

Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Suqovuşanda olarkən qəsəbədəki 144 şagird yerlik tam orta məktəbin binasındakı vəziyyətlə də maraqlanıblar. Məktəbin binasının Elm və Təhsil Nazirliyi tərəfindən təmir olunacağı nəzərdə tutulur. Ərazisi bir hektar olan məktəb 12 sinif otağından, 60 nəfərlik akt zalından və kitabxanadan ibarətdir. Dördmərtəbəli binanın təmiri başa çatdırıldıqdan sonra təhsil işçilərinin istifadəsinə veriləcək, burada işlər yenidən canlanacaq. Füzulidə də məktəb tikintisi ilə bağlı layihələndirmə işləri gedir.

Yeni dərs ili ərəfəsində Azərbaycan Prezidenti işğaldan azad olunmuş ərazilərdə məktəb binalarının tikintisi, təmir və bərpa işləri ilə bağlı sərəncamlar imzalayıb. Qarabağ iqtisadi rayonuna daxil olan Ağdam, Füzuli, Xocavənd və Tərtər rayonlarının işğaldan azad olunmuş ərazilərinin yaşayış məntəqələrində tikinti, təmir, bərpa işləri ilə bağlı tədbirlər haqqında, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının işğaldan azad olunmuş ərazilərinin yaşayış məntəqələrinin, Şuşa şəhərində Sadıqcanın yaşadığı evin layihələndirilməsi və bərpası, Kəlbəcər, Zəngilan şəhərlərində məktəb binasının layihələndirilməsi və tikintisi haqqında sərəncamlarda Kəlbəcər və Zəngilan şəhərinin hər birində 960 şagird yerlik tam orta məktəb binasının tikintisi də nəzərdə tutulub. Bir sözlə, təhsil sahəsində işlərin canlandırılması diqqət mərkəzindədir.

Dövlətimiz Böyük Qayıdışın reallaşdırılmasına Zəngilandan, Ağalıdan başladı. 28 il ayrılıqdan sonra bu kəndin sakinləri doğma yurd yerlərinə qovuşdular. İndi burada həyat yenidən canlanıb. Tədris ilinin başlaması ilə çox şey dəyişəcək...

16 yaşlı Aqşinin dediklərindən: "Mən Ağalını görməsəm də, nənəm, valideynlərim kənd haqqında çox danışıblar. Odur ki, Ağalı hər zaman mənim qəlbimdə olub, həmişə bura gəlməyi arzulamışam. Bu gün bu arzum gerçəkləşib. Sevinirəm ki, ana Vətənimə gəlmişəm və burada yaşayacağam, təhsilimi kəndimizdə başa vuracağam".

Builki dərs ili çoxlarının yaddaşında öz izini qoyacaq. Onbirincilər və birincilər üçün isə daha yaddaqalan olacaq.

Bəli, bu gün ölkəmizdə növbəti dərs ili başladı, ümumtəhsil məktəblərində ənənəvi olaraq ilk zəng çalındı. Güman edirəm ki, Ağalıda çalınan bu zəng daha gurultulu, daha əzəmətli səsləndi, çünki o, adi bir zəng deyil, dünyaya mesaj idi:

Biz doğma torpaqlarımıza qayıtmışıq!..

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

Respublika .- 2022.- 15 sentyabr.- S.10.